*UOT 373.31*

# TƏLİM PROSESİNDƏ KİÇİKYAŞLI MƏKTƏBLİLƏRİN YARADICI FƏALLIĞININ İNKİŞAF ETDİRİLMƏSİNİN İMKANLARI VƏ YOLLARI

**Gülçin Xudaverdi qızı Xəlilova**
*Bakı Qızlar Universitetinin magistrantı*
**ORCİD:** 0009-0007-4008-2812
**E-mail:** gulcinxelilova@icloud.com

***Açar sözlər:*** *təlim prosesi, kiçikyaşlı məktəblilər, yaradıcı fəallıq, dərsliklərdə yaradıcılıq, imkan və yollar, oyun*
***Ключевые слова:*** *процесс обучения, ученики младших классов средней школы, твореская деятельность, творчество в учебниках, возможности и пути, игровой процес*
***Key words:*** *learning process, students, creative activity, creativity in textbooks, opportunities and ways, game*

Dünyada gedən sürətli dəyişikliklər, yeniliklər güclü və yaradıcı insan modelinin formalaşdırılmasını ümumi təhsil müəssisələri qarşısında əsas çərçivə kimi qoymuşdur. Qeyd etməliyik ki, dövrümüzdə şagirdlərin təlim prosesində nümayiş etdirdikləri yaradıcılıq fəaliyyəti onların həmdə akademik uğurlarının yüksəlməsinə, eyni zamanda təlim keyfiyyətinin yüksəldilməsinə zəmin yaradır. Təlim prosesində yaradıcılığın inkişaf etdirilməsi üçün birbaşa təhsil mühitinin özü araşdırılmalı, yəni məktəb və strukturları əsaslı şəkildə tədqiqatdan keçirilməlidir. Bu məqalənin mövzusuna şəffaf münasibət bildirmək üçün *yaradıcılıq qabiliyyətlərinin strukturu, təzahür xarakteri, pedaqoji rəhbərlik, nəzəri məlumatlardan praktikada məharətlə istifadə edilməsinin, tədris prosesində yaradıcılıq mühitinə müsbət təsir göstərən zəruri şəraitin yaradılması* kimi məsələlərin ətraflı şəkildə araşdırılıb ümumi nəticəyə gəlinməsinə ehtiyac duyulurdu. Bu səbəbdən mövcud dissertasiya işinə istinad edərək, məqalədə ümumi təzahürlər öz əksini tapmışdır.

İnsan beyni düzgün qidalandırma, şərait vasitəsilə deyil, həm də stimullaşdırma ilə inkişaf edir. Bu stimullar uşaqların yaradıcılıq qabiliyyətlərinin vaxtında və tam inkişafına imkan verən təhsil sistemi tərəfindən yaradılmalıdır. Burada təhsil sistemi özündə yaradıcılığı geniş mənada əks etdirməlidir. Bu məktəb mühitində, məktəbin maddi-texniki struktur bazasında, müəllimlərdə, digər şagirdlərin tərbiyəsi ilə məşğul olan pedaqoqlarda, ailə münasibətlərində, dərsliklərdə, tədris planları və proqramlarında, digər tədris resurslarında və s. özünü göstərməlidir. Vəhdət halında göstərilən təsir öz məqsədinə çatmış sayılır. Bu təhsilin tamlıq prinsipini nümayiş etdirir.

Kiçikyaşlı məktəblilərin yaradıcı fəaliyyətinin inkişaf etdirilməsində başlıca yollardan biri də “əlavə, çox da lazım olmayan” kimi səsləndirilən digər fənlər: Həyat bilgisi, Texnologiya, Təsviri incəsənət, Musiqi və s. qəbul edilməlidir. Qeyd etməliyik ki, Azərbaycan dili və Riyaziyyat fənlərindən daha çox şagirdlərin yaradıcı təxəyyülünün inkişafını dəstəkləyən materiallarla zəngin olan bu fənlərə daha çox diqqət ayrılmalı və ikinci planda saxlanılmamalıdır. Nümunə üçün birinci sinif Musiqi kitabında verilmiş tapşırıqların nə dərəcədə şagird təfəkkürünün inkişafını dəstəkləyən olmasına diqqət yetirilmişdir. Məsələn Brilyant Azərbaycan xalq rəqsini

yaradıcı şəkildə öyrənmək şagirdlərin ixtiyarına verilmişdir. Şəkildə rəqsin notlarını istənilən yaddaqalan sözlərlə öyrənə bilmək müstəqilliyi şagirdlərə verilərək onların yaradıcı təxəyyülü stimullaşdırmaq üçün zəmin yaradılmışdır [1, s.27].

**Bəs təlim prosesində kiçikyaşlı məktəblilərin yaradıcı fəaliyyətini inkişaf etdirməyin imkan və yolları nələrdir?**

Bu suala bir çox alimlərin, tədqiqatçıların, qabaqcıl müəllimlərin fikirlərini ümumiləşdirərək cavab vermək daha faydalı olar.

**1. Müəllim amili:** İlk olaraq şagird yaradıcılığını inkişaf etdirmək üçün müəllim amili xüsusi əhəmiyyət kəsb edir.

**2. Oyunlardan istifadə:** Uşaq həyatda olmayan müstəqilliyini oyunda tapır.

Kiçikyaşlı məktəblilərin yaradıcılığında xüsusilə rollu oyunlar mühüm əhəmiyyətə malikdir. Z. Freyd deyirdi ki, *uşaq həyatda sürücü, tərbiyəçi olmaq istəyir, amma onun buna imkanı yoxdur, lakin oyun prosesində isə o istəsə həkim, istəsə sürücü və ya tərbiyəçi ola bilər* [2, s.180].

**3. Layihə əsaslı öyrənmə və fənlərarası əlaqələr:** Layihə əsaslı öyrənmə müxtəlif sahələrdən biliklərin toplanılması və tətbiqini tələb edən bir üsuldur.

**4. Texnologiya və rəqəmsal alətlərdən istifadə:** Müasir texnologiyalar öyrənmə və yaradıcılığı stimullaşdırmaq üçün yeni üfüqlər açır.

**5. Dəstəkləyici mühitin yaradılması, yaradıcı tapşırıqların tətbiqi, konstruktiv rəyin verilməsi, özünüqiymətləndirmə və yoldaş qiymətləndirməsi, fəal təlim metodlarının tətbiqi** və bunlar kimi çoxlu yaradıcılığı inkişaf etdirəm imkanlar müxtəlif ədəbiyyatlarda öz əksini tapmışdır.

Biz bəzi imkanları qısaca qeyd etdik. Bunu təlim prosesində mövcud vəziyyətə və hadisələrə yaradıcı şəkildə tətbiq etmək isə olduqca geniş bəhs edilmə dairəsi tələb edir. Britaniyalı psixoloq Edvard De Bono yaradıcılığı inkişaf etdirməyin yollarını daha sistemli şəkildə təsvir etmişdir:

**1. Sintetik fırtına:** Bu metodun yaradıcısı amerikalı tədqiqatçı Uilyam Qordondur. Burada əsas açar söz *analogiyadır.*

**2. Altı papaq metodu:** Altı papaq metodu hər hansı bir məsələnin müzakirəsində yeni ideyalar axtarmaq, problemlərin optimal həllərinin araşdırılması kimi məsələlərin idarə olunması üçün əlverişli üsullardan biridir.

Bu metodun köməyilə şagird öz düşüncəsinin xüsusiyyətlərini daha yaxşı başa düşür. Metaforik rəngli altı papaq hər biri problemlərin həllinə müəyyən yanaşmanı simvollaşdırır. 1. **Ağ papaq**- açar sözü faktdır. Yaradıcılığını faktlar, rəqəmlər, arqumentasiyalar üzərində qururlar. 2. **Qırmızı papaq** - Burada əsas açar söz *emosiya və hisslərdir.* Qırmızı papaqda düşünmək demək olar ki, ağ papağın tam əksidir. Özümü necə hiss edirəm; intuisiya mənə nə deyir; xəbərlərə, şübhələrə, hadisələrlə diqqət yetirilir. 3. **Qara papaq** - açar sözü *kritik(tənqid)* kimi qəbul edilir. Bu düşüncə formasında hadisəyə yanaşma haqlı çıxmaqdan daha çox problemin tənqidi analizi və deyilən fikirlərə, müddəalara açıq olmaqdır. 4. **Sarı papaq** - Optimistdir, şüurlu səy tələb edir. Daha çox müsbət tərəfləri axtarır. Hər hansı bir hadisədə faydası nə oldu; dəyəri nədir; müsbət nə qazandırdı kimi düşüncə tərzi ilə yaradıcılığı stimullaşdırır. 5. **Yaşıl papaq** - birmənalı olaraq *yaradıcılıq* başa düşülməlidir. Orijinal həllər tapmaq və alternativlər axtarmaq üçün şüurun düşünülmüş və cəmlənmiş səyləridir. Bütün üsullar uğursuz olduqda

belə yaradıcılıq başlanılır. 6. **Mavi papaq** - təşkilatçıdır. Müzakirələri yekunlaşdırmaq, son qoymaq, bir növ düşünmək haqqında düşünmək texnikasıdır.

**3. Çərçivədən kənara çıxmaq metodu:** Çox vaxt problemin həllində obyektiv yanaşma itir və həll etməkdə çətinlik yaranır.

Bu metoddan istifadə etməklə "kənardan yanaşma" tətbiq edilərək yaradıcılıqla məsələ həll edilir.

**4. Təsadüfi söz metodu:** Həm qrup, həm də fərdi şəkildə aparıla bilər. Qaydası isə belədir: ağıla gələn ilk söz söylənilir və bu söz mövcud problemlə əlaqələndirilməyə çalışılır.

**5. Düşünən üç kürsü metodu:** Ardıcıl olaraq müxtəlif mövqelərdən çıxış etmək strategiyasıdır.

Təsəvvür edin bir problem var və onu həll etməyə çalışırsınız. Bu zaman 3 kürsü var və siz bu kürsülərdə oturaraq 3 ayrı şəxs kimi fikir bildirirsiniz. Birinci Xəyalpərəst kürsüsündə əyləşir, problemlə bağlı ən fantastik fikirləri ortaya qoyur. İkinci Realist kürsüsündə əyləşir və sağlam düşüncəni daxil edərək, ilk kürsüdə ağlına gələn fikirləri əsaslandıraraq rasional həllər axtarır. Üçüncü olaraq Tənqidçi kürsüsündə əyləşərək əvvəllər söylənilən bütün fikirləri amansız tənqidçi fikirlərə məruz qoyur. Ən güclü, optimal variant seçilir.

**6. Sərbəst yazı üsulu:** Burada insan beynində əlaqəli, əlaqəsiz bütün fikirlər bir kağıza yazılır. Sadəliyinə baxmayaraq bu üsul beyini müəyyən nizam-intizama salır, yaradıcılığa stimullaşdırır.

**7. Sərbəst yazı qaydaları:** Bu zaman hər hansı qaydalara riayət edilmir. Sadə şəkildə desək, yaradıcılıq axtarılmır. Səhvlərlə yazılan bir essedən sonda nəticə çıxarılır.

**8. Danışmadan tez yazmaq üsulu:** Çünki ən yaxşı fikirlər məhz sürətləndirilmiş rejimdə çalışan zaman gəlir. Bu zaman ağıl sanki "sönür", beyin bir zərbə ilə heyrətamiz ideyalar verir [2, s.243].

Bu metodların sayını olduqca artırmaq mümkündür. Lakin bir məsələni vurğulamaq lazım gəlir ki, şəxsiyyət təkrarolunmazdır. Hər bir metod öz təsiri göstərə bilər, lakin yeganə variant ola bilməz. Yekun olaraq qeyd edək ki, təhsildə yaradıcı təfəkkürün uğurla həyata keçirilməsinin açarı şagirdlərin təşəbbüskarlığını dəstəkləmək, onların yaradıcılığını inkişaf etdirmək və innovasiyaları təşviq edən təhsil mühiti yaratmaqdır.

**Problemin aktuallığı.** Yaradıcı fəallığın təlim prosesində inkişaf etdirilməsində müəyyən üsul və texnikaların tətbiqi kiçikyaşlı məktəblilərin maraq və səylərinin yüksədilməsinə əhəmiyyətli dərəcədə təsir göstərir. Məqalədə qeyd edilən məsələlər təlim prosesini zənginləşdirməklə yanaşı kiçikyaşlı məktəblilərin gələcək inkişaflarında uğurlu, yaradıcı, rəqabət qabiliyyətli şəxsiyyətlər kimi yetişdirilməsinə şərait yaradır.

**Problemin elmi yeniliyi.** Kiçikyaşlı məktəblilərin təlim prosesində yaradıcı fəallığının artırılmasının imkan və yolları araşdırılmış, sistemli şəkildə təqdim edilmişdir. Təhlillər zamanı müsbət cəhətlərlə yanaşı nəzərə çarpan qüsurların və buna təkliflərin qeyd olunması məqalənin elmi yeniliyi olaraq dəyərləndirilməlidir.

**Problemin praktiki əhəmiyyəti və tətbiqi.** Məqaləni ümumtəhsil məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

**Ədəbiyyat**

1. Ə.Ə. Qədirov. Yaş psixologiyası. Bakı: "Maarif" nəşriyyatı, 2002, 386 s.
2. Rəcəbova N., Quliyeva Ş., Əliyeva Z. Musiqi (1-ci sinif üçün dərslik) / Bakı: "Şərq-Qərb" ASC-2024, 80 s.
3. R.V.Cabbarov. Yaradıcılıq psixologiyası (Dərs vəsaiti). Bakı: "OPTiMiST" MMC, 2022, 260 s.
4. Torrence, E.P.Cause for concern, chapter/ Guilding Creative Talant, Prentice-Hall, 1962.

**Г.Х. Халилова**

**Возможности и пути развития творческой деятельности младших школьников в образовательном процессе**
**Резюме**

В заключение следует отметить, что развитие творческой активности у младших школьников формируется в процессе обучения. Все возможности и пути, истинное творчество обязательно должны вести к развитию человеческой личности, развитию человеческой культуры.

**G.K. Khalilova**

**Possıbılıtıes and ways of developıng the creatıve actıvıty of young schoolpıeces ın the educatıonal process**
**Summary**

In conclusion, the development of creative activity of younger schoolchildren is formed in the educational process. All opportunities and ways, true creativity must necessarily lead to the development of the human personality, the development of human culture.

**Redaksiyaya daxil olub:** 23.04.2025